Azəebaycan Arxeologiyası
Xəzər Universiteti Nəşriyyatı

Cild 24 № 1 2021. 87-100
DOI: 10.5782/2218-0346.2021.24.1.87

# Son Tuncdan Erkən Dəmirə keçid dövrünün kurqanları haqqında (Plovdağ nekropollarının materialları əsasında)

**Bəhlul İbrahimli**
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
e-mail: ibrahimlib@mail.ru
**Elvin Əliyev**
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
e-mail: aliyevelvin@yandex.ru

**Açar sözlər:** Plovdağ, Tunc dövrü, Erkən Dəmir dövrü, kurqan, artefakt.

## Giriş

Plovdağ nekropollarında aparılan arxeoloji tədqiqatlar Son Tunc–Erkən Dəmir dövründə qəbir abidələrində kəskin dəyişikliklərin baş verdiyini göstərdi. Bu dəyişikliklər həm qəbirlərin quruluşunda, həm dəfn adətində, həm də aşkar edilmiş avadanlıqda izlənir. Əlbəttə ki, qəbir abidələrində baş verən bu dəyişikliklər qədim cəmiyyətin mənəvi həyatında baş verən dəyişikliklərlə sıx bağlı olmuşdur. Bu dövr, quldarlıq quruluşunun yaranması, dövlətlərin meydana gəlməsi, sinifli cəmiyyətin inkişaf etdiyi bir dövr idi.

Erkən Tunc dövrünün qəbir abidələri ilə Son Tunc dövrünün qəbir abidələri arasındakı fərqliliklər məhz qədim cəmiyyətin inkişafında baş verən köklü dəyişikliklərin inikasıdır. Bu fərqlilikləri I Plovdağ və II Plovdağ nekropollarının göstərilən dövrlərə aid qəbrlərində aydın görürük.

II minilliyin sonlarında dəfn adətində, qəbirlərin quruluşunda və avadanlığında dəyişikliklər daha intensiv surətdə baş vermişdir. Yeni qəbir tipləri meydana gəlmiş, qəbirdə ölülərin istiqaməti dəyişmiş, avadanlıq daha zəngin olmuşdur. Plovdağ nekropollarında tədqiq olunmuş Son Tunc – Erkən Dəmir dövrünə aid bir neçə qəbirin timsalında bu dəyişiklikləri aydın izləmək mümkündür.

I Plovdağ nekropolunda tədqiq olunan 42 saylı kurqanın daş qutu qəbiri maraqlı tapıntılar verdi. Bu kurqanaltı daş qutu qəbirdə müxtəlif vaxtlarda üç qadın üst-üstə dəfn olunmuşdu. Altdakı qadın skeleti daha yaxşı saxlanmışdı. Bu qəbir bəzək əşyalarına, xüsusən muncuqlara və baş geyiminə görə II Plovdağ nekropolundakı 6 saylı kurqanaltı daş qutu qəbirlə analoji xüsusiyyətlərə malikdir.

Qeyd edək ki, I Plovdağ və II Plovdağ nekropollarında qəbir abidələri əsasən kurqanlardan ibarətdir. Ona görə də kurqanlar, kurqanaltı qəbir tipləri, onların mənşəyi, dövrü haqqında bəzi fikirlərə münasibət bildirmək lazımdır.

Arxeoloji ədəbiyyatda üzərində torpaq, ağac və ya daşdan konusvari formada təpəciyi olan qəbir abidələri kurqan adlanır (5, 1, s. 131-132).

Qafqazda kurqanların mənşəyi və yayılması problemi uzun illərdir ki, arxeoloqlar arasında polemika mövzusu olsa da, hələlik bu problemi tam həll olunmuş hesab etmək olmaz. Lakin, son illərdə Azərbaycan arxeoloqlarının apardığı tədqiqatlar bu məsələyə - xüsusən, Cənubi Qafqaz kurqanlarının mənşəyi probleminə müəyyən qədər aydınlıq gətirmişdir.

Azərbaycanda kurqanların mənşəyi məsələsi qədim kurqanların tədqiqatçılarından biri N.Müseyibli tərəfindən geniş şəkildə araşdırılmışdır. N.Müseyibli kurqanların Qafqazda ilk dəfə Leylatəpə mədəniyyəti daşıyıcıları arasında meydana çıxdığını və buradan Şimali Qafqaza (Maykop mədəniyyəti) yayıldığını göstərir (9, s. 91) O, B.Qovedaritsanın, Göbəklitəpədəki dairəvi tikililərin simvolik kurqanlar, kurqanaltı dəfnlərin ilkin mərhələsi olduğu fikrilə razılaşır və kurqanaltı dəfn adətinin hind-avropalılar tərəfindən Cənubi-Şərqi Avropadan Qafqaz istiqamətinə yayılması ideyasının düzgün olmadığını qeyd edir (8, s. 82). Fikrimizcə, Göbəklitəpə ruhların toplaşdığı müqəddəs yer, ziyarətgah olmuşdur. Bunu, qədim türklərin Tanrı dağına olan münasibəti ilə müqayisə etmək olar.

Yeri gəlmişkən qeyd edək ki, V.L.Rostunovun Üçtəpə kurqanlarını Maykop mədəniyyətinin böyük kurqanlarına aid etməsi də həqiqətə uyğun deyil (26, s. 182). Belə ki, Azərbaycanda kurqan tipli qəbirlər son xalkolit dövründən başlayaraq özünün bütün inkişaf mərhələlərini keçmişdir.

Kurqan sözünün etimologiyasını bəzi rus tədqiqatçıları mübahisə mövzusuna çevirərək, ona ağla sığmayan bayağı şərhlər verməklə bu sözü slavyan dillərinə aid etməyə çalışırlar. Maykop mədəniyyətinin tədqiqatçılarından biri olan S.N.Korenevskinin "kurqan" sözünün qədim rus sözü olduğu haqda (22, s. 123) fikirlərini N.Müseyibli tutarlı arqumentlərlə təkzib etmiş, arxeoloji ədəbiyyatda "kurqan" sözünün türk dilində olduğu fikrinin mütəxəssislər tərəfindən qəbul edildiyini qeyd edərək, burada təftişçiliyə yer olmadığını göstərmişdir (8, s. 86-89).

Məlumdur ki, "kurqan" sözü türk dilindən rus dilinə (o cümlədən başqa dillərə) qıpçaklardan (kumanlardan) keçmişdir. XIV əsrə aid kuman dilində yazılmış "Codex Cumanikus" lüğətində "kurqan" sözü süni tökülmüş təpəyə deyilir (18, s. 379-380). Arxeoloji ədəbiyyatda üzərindəki təpənin formasın-

dan və hansı materialdan qurulmasından asılı olmayaraq bu qəbirlər kurqan adlanır (23, s. 51.).

Kurqan təpələri tərkibinə görə müxtəlif (daşdan, torpaqdan, daş-torpaq qarışıq) olsa da, onların bəzilərini müxtəlif etnik qruplarla, arxeoloji dövrlərlə bağlayan müəlliflər də vardır. Q. A. Fyodorov-Davıdovun fikrincə, Şərqi Avropa çöllərinə daş təpəli kurqanları kumanlar-polovetslər gətirmişdir (27, s. 122-123).

Kurqanın təkcə təpəsini deyil, qurbangahını da daşla qururdular. Maraqlıdır ki, I Plovdağ nekropolunda torpaq qəbirli kurqanların da qurbangahları daşla qurulurdu. Hələlik, torpaqdan qurulmuş qurbangaha rast gəlinməmişdir. Qurbangahları əsas qəbirə aid olan ehsan odası kimi başa düşmək olar. Ölünün statusundan, cəmiyyətdəki mövqeyindən asılı olaraq qurbangahların həcmi və avadanlığı da dəyişir.

Qazağıstanın Akmolinsk vilayətində tədqiq olunan bir kurqanın yanında dördbucaqlı formada nəhəng daşlarla işlənmiş bir qurbangahda 12 at və 14 qoç kəlləsi aşkar olunmuşdu. Bu qurbanlıq heyvanların ətini ehsan kimi yemiş, kəllələrini isə qurbangahda basdırmışdılar (16 s. 96-97.). Altaylardan və Qazağıstandan fərqli olaraq Plovdağ kurqanlarının qurbangahlarına ancaq gil qablar qoyulmuşdur. Çox təsadüfi halda xırda buynuzlu heyvan skeletinə və quş sümüklərinə (II Plovdağ, 8a) rast gəlinmişdir. Azərbaycanın başqa bölgələrində də qurbangahlarda heyvan sümüklərinə az təsadüf olunmuşdur.

Cənubi Qafqazda indiyədək aşkar edilmiş kurqanlar ümumi xüsusiyyətlərə malik olsalar da, lakin bölgələrdən asılı olaraq onların lokal variantları da vardır. Bu baxımdan Plovdağ kurqanları daha çox seçilirlər. Quruluşuna və tapıntılarına görə Plovdağ kurqanlarına analoji kurqanlar Abşeronda, Mingəçevirdə, Gürcüstanda Namqalamitsi və Kobal nekropollarında (25, s. 60-61, tabl. 82-91) aşkar edilmişdir.

V.B.Baxşəliyev Naxçıvandakı daş qutu və torpaq qəbirli kurqanların Xocalı-Gədəbəy mədəniyyətinə aid olduğunu yazır və qeyd edir ki, bu mədəniyyətin daşıyıcıları Azərbaycanın şimalından Naxçıvana, buradan da Urmiya ətrafına yayılaraq məskunlaşmışlar (3, s. 60). O, Orta Tunc dövründə Gürcüstanın və Şimali Azərbaycanın böyük bir hissəsində boz və qara rəngli cilalı keramika ilə xarakterizə edilən mədəniyyətin Kür-Araz mədəniyyətindən törədiyini və onunla bağlı olduğunu, Xocalı-Gədəbəy mədəniyyətinin isə bu mədəniyyətin davamı olduğunu qeyd etmişdir (3, s. 58)

Qeyd edək ki, Xocalı-Gədəbəy mədəniyyətinin, eləcə də bu mədəniyyətə aid kurqanların mənşəyi haqqında fərqli fikirlər vardır. Bu mədəniyyətin

tədqiqatçılarından M. Hüseynova Qaracəmirli kurqanlarının Altay və Cənubi Sibir kurqanları ilə müqayisəli təhlilindən belə bir nəticəyə gəlir ki, bu kurqanlar, e. ə. XVI-XV əsrlərdən başlayaraq yüksək metalişləmə səviyyəsinə malik, nadir incəsənət nümunəsi olan tunc kəmərlər yaradan, maral və atlardan qoşquda istifadə edən etnik kütlənin şimaldan Cənubi Qafqaz ərazisinə gəlməsinin tarixi sübutlarıdır (20, s. 151).

Naxçıvanda Xocalı-Gədəbəy mədəniyyətinə aid zəngin kurqanlar e.ə. XV-XIII əsrlərdə geniş yayılmışdır. Çox ehtimal ki, məhz, bu zaman - Son Tunc-Erkən Dəmir dövründə Naxçıvan yaxınlığında (Qızılburunda) Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının inzibati-dini mərkəzlərindən biri yerləşmişdi (6, s. 61). Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanların sıxlığına və xronoloji cəhətdən uzun müddət davam etməsinə əsasən ikinci belə bir mərkəzin Plovdağda olması şübhə doğurmur. Əldə olunan materiallar sübut edir ki, Plovdağda Xocalı-Gədəbəy mədəniyyətinin lokal bir variantı formalaşmış və uzun müddət davam etmişdir. Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanların bəzi elementləri özünü, hətta, Antik və Orta əsrlərin qəbir abidələrində də qoruyub saxlaya bilmişdi.

Məsələ ondadır ki, paralel olaraq Orta Tunc dövründə Azərbaycanın cənubunu, o cümlədən, Naxçıvanı da əhatə edən və boyalı qablarla səciyyələnən daha bir mədəniyyət Urmiya gölü ətrafında, Şərqi Anadoluda, müasir Ermənistan ərazisində və Gürcüstanın bir hissəsində yayılmışdı (3, s. 58).

Boyalı qablar mədəniyyətinin yayılması haqqında A. Özfirat yazır ki, e.ə. II minilliyin əvvəllərində yeni yaşam tərzi və boyalı qablarla qarşımıza çıxan bir qrup Transqafqaziya, İran Azərbaycanı və Doğu Anadoluda geniş ərazilərə yayılmışdı (2, s. 108). Plovdağda bu mədəniyyətlə Xocalı-Gədəbəy mədəniyyəti daşıyıcılarının qarşılıqlı münasibətini faktiki tapıntılarda, xüsusən, qəbir abidələri və onların materiallarında izləmək mümkündür. Arxeoloji materiallar göstərir ki, gəldikləri ilk əsrlərdə üstünlük təşkil etsələr də, lakin II minilliyin sonuna yaxın bu iki mədəniyyətin çuğlaşmasından sinkretik bir mədəniyyət yaranmışdır. Bu özünü Plovdağ ətrafındakı Erkən Dəmir dövrünə aid nekropolların materiallarında aydın göstərir.

Orta Tunc dövrünün sonu və Son Tunc dövrünün əvvəllərində Plovdağda ən geniş yayılmış qəbir tipi Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanlar (7, s. 75) olsa da, bir faktı xüsusilə qeyd etmək lazımdır ki, Plovdağdakı Xocalı-Gədəbəy mədəniyyətinə aid daş qutu qəbirli kurqanlarda boya naxışlı qab aşkar olunmamışdır. Yalnız, 18 saylı kurqanın qəbrinə bir qara rəngli qabla yanaşı bir ədəd üstü qırmızı boya ilə örtülmüş naxışsız bir qab qoyulmuşdu.

Beləliklə, Plovdağ kurqanlarının tədqiqi hər iki mədəniyyətin öyrənilməsi və qarşılıqlı təsirinin araşdırılması üçün müstəsna əhəmiyyətə malikdir.

I Plovdağ kurqanlarında diqqəti cəlb edən bir cəhət də, alt təbəqədəki kurqanların bir neçəsində ölünün sağ əlində piyalə və ya kiçik çanaq aşkar edilməsidir. Tunc dövründə Mesopotamiyada, Altayda, Qazağıstanda yayılmış bu dəfn adətinin Naxçıvanda qədim kökləri vardır. Belə ki, analoji dəfn adətinə I Kültəpə yaşayış yerinin Eneolit dövrü mədəni təbəqəsində yaşayış evlərinin içərisində və həyətlərdə aşkar edilmiş qəbirlərdə də rast gəlinmişdir (15, s. 48, 24 saylı qəbir). I Plovdağ nekropolunda bu adətə, ancaq alt təbəqədəki torpaq qəbirli kurqanlarda rast gəlinir. Xocalı-Gədəbəy mədəniyyətinin inkişaf dövrünə aid kurqanlarda, hələlik bu adətə rast gəlinməmişdir.

Məlumdur ki, qədim əkinçi-maldar tayfalarda dəfn adəti uzun müddət dəyişilməmiş qalmışdır. O. A. Həbibullayev Gücüstandakı Urbnisi, Amiranisqora, Quniya, Ermənistandakı Şenqavit, Ukraynadakı Tripolye mədəniyyətinə aid, Tükmənistandakı Anau, İrandakı Sialk təpə, Cəmşid təpə, Giyan təpə, Mesopotamiyadakı Gavur təpə və Fələstindəki Qosul yaşayış yerlərini müqayisə edərək bu abidələrin hamısında dəfn adətinin eyni olduğunu göstərir (15, s. 50-51). Məlumdur ki, qəbir abidələrində köklü dəyişikliklər, yalnız dini inancın dəyişdiyi, və ya yeni etnik qrupların gəlməsi ilə bağlı olur. Bu zaman dili, mədəniyyəti və məişəti yaxın olan etnik qruplar uzlaşaraq tezliklə sinkretik bir mədəniyyət yaradırlar. Bunu, Muncuqlutəpə nekropolu qəbirlərinin timsalında aydın izləmək mümkündür.

Plovdağ abidələrinin dövrləşməsinə yenidən baxmağı şərtləndirən tapıntılardan biri də Xocalı-Gədəbəy mədəniyyətinin son mərhələsində, müəyyən bir dövrdə (bəlkə də bir neçə əsr ərzində) yayılmış iri həcmli, ortasında ilanaoxşar bəzəyi olan tunc sırğalar-asmalardır (Şəkil 1). Arxeoloji ədəbiyyatda bu tapıntıların təyinatı müxtəlif cür müəyyən edilir və daha çox onlar "ilan bəzəkli sırğalar" adlanır. Bəzi ədəbiyyatda bu sırğalar "asma bəzək" (17, s.10), (11, s. 11-13), "baş bəzəyi" (12, s. 18), "boyunbağı" (3, s. 44), "çəngəlli sırğa" (3, s. 28) adlandırılsa da, tədqiqatçıların böyük əksəriyyəti onlardan funksional olaraq yalnız sırğa kimi istifadə olunduğuna şübhə etmir. Tədqiqatçıların belə bir fikrə gəlməsinə səbəb onların həmişə kəllə sümüyünün yan tərəflərində - qulaq nahiyyəsində və iki ədəd tapılmasıdır. Qeyd edək ki, baş bəzəyinə aşağı hissədən bərkidilən və qulaqların üstündən sallanan asmalar da kəllə sümüyünün məhz bu tərəfində aşkar edilmişdir. Bu bəzək əşyalarında öz əksini tapan ilanın qoruyucu qüvvəyə malik olması, ilan kultu ilə bağlılığı arxeoloji ədəbiyyatda kifayət qədər təhlil olunmuşdur (1, 17, s. 90).

Yuxarıda təsvir etdiyimiz kimi, I Plovdağ nekropolunda bu bəzək əşyası kəllə sümüyünün altında "in situ" vəziyyətində qulaq nahiyyəsindən bir az kəlləyə tərəf aşkar olundu. Ehtimal ki, ölü qəbirə qoyularkən baş bəzəyi yerini dəyişmişdir. Cənubi Qafqaz abidələrində yayılan bu sırğa-asmalar formasına görə bir-birindən az fərqlənirlər, ölçüləri də təqribən bir-birinə yaxındır. Çox nadir hallarda onların kiçik həcmli nümunələrinə də rast gəlmək olur.

İlanaoxşar bəzəkli sırğa-asmaların ilkin nümunələri adi tunc məftildən hazırlanmış və həlqənin yoğunluğu sırğanın həcmindən asılı olmuşdur. Zərgər usta sırğanı düzəldən zaman tunc məftilin bir ucunda "ilanın" başını düyünləyir, ardınca hərəkətdə olan bədənini simmetrik əyrilərlə düzəldirdi, sonra təqribi olaraq həlqəni qurur, əgər həlqə böyük olardısa onda ilana daha bir əyri artırırdı. Həlqənin ölçüsü, bəzən, əyrilərin sıxlığı, ya seyrəkliyi ilə də nizamlanırdı. Anlaşılan odur ki, ilkin nümunələrdə bəzəyi daha çox ilana oxşatmağa çalışmış, hətta bəzən əyrilərin həlqəyə birləşən yerində dairəvi sıx spiralla gözlüklü ilan başının stilizə olunmuş formasını, ya da ilanın sancmaq üçün tullanmamışdan qabaq həlqələnən vəziyyətini yaratmağa çalışmışlar (14, s. 110 – Cənnət qalası, 91 saylı qəbir). Sırğa-asmaların, demək olar ki, hamısında həlqə ilanın quyruq tərəfindən başlayaraq düzəldilirdi. İlanın başı isə həlqəyə elə birləşdirilirdi ki, sanki ilan ağzı ilə həlqəni sancmaq üçün tutmuşdur. (14, 30-cu tablo, 64 saylı qəbir). Beləliklə, usta bəzək əşyasında həm real bir səhnəni əks etdirməyə çalışmış, həm də bununla bəzək əşyasına bir dinamiklik, canlılıq vermişdir.

1950-ci ildə Mingəçevirdə metal bəzək əşyaları ilə zəngin 63 saylı qəbirdə bir cüt belə sırğa-asma aşkar olunmuşdu. Sırğa-asmalar həcminə görə kiçik olub diametri 3,3 sm, hazırlandığı tunc məftilin yoğunluğu isə 0,2 sm idi. Bu sırğanın ortasında eyni yoğunluqda tunc məftildən hazırlanmış, hərəkətdə olan ilanı xatırladan bəzəyi vardır (28, s. 73). V.P. Fomenko Y.İ. Hümmelə istinad edərək ilanabənzər bəzəyi olan tapıntıların Tunc dövrü üçün tipik kult əşyası olduğu ilə razılaşır (28, s. 74). və S.M.Qazıyevin bölgüsünə əsaslanaraq 63 saylı qəbiri e.ə. IX-VII əsrlərə aid edir. (28, s. 80).

Qeyd edək ki, Mingəçevirdə 63 saylı qəbirdə tapılan sırğa-asma tam deyil, qulaq seyvanına və ya baş geyiminə taxılan sancağı-qarmağı yoxdur. Görünür, qarmaq çox nazik olduğu üçün çürümüşdür. Bu sırğa-asmalarda nadir hallarda qarmağın olduğunu izləmək mümkündür. Burada maraqlı olan sırğa-asmanın hansı tərəfdən asılmasıdır. Plovdağdakı nümunədə qarmaq ilanın başının həlqəyə birləşdiyi yerə bərkidilmişdir.




Şəkil 1. Xaçbulaq, 2-Cənnət qalası 3-Muncuqlutəpə, 4-Sarıdərə, 5-Muncuqlutəpə, 6-Kolanı.



2

Şəkil 2. I Plovdağ. 42 saylı kurqan.

Eynilə bu ölçüdə, ilanaoxşar bəzəkli sırğa-asmalardan H.P.Kəsəmənli Xaçbulaqda kütləvi dəfnli kurqanda aşkar etmişdi (21, s. 71-72). Burada sırğa-asmaların bir tayı deformasiyaya uğrasa da, ikinci tayı ilkin formasını saxlamışdı. Lakin, hər ikisində sırğa-asmanı qulaq seyvanına, yaxud baş geyiminə birləşdirən sancaq-qarmaq yoxdur.

Haşiyə çıxaraq, burada həm V.P.Fomenkonun Mingəçevirdəki 63 saylı qəbirdən, həm də H.P.Kəsəmənlinin Xaçbulaq kurqanından tapdığı sırğa-asmaların ölçülərini dəqiqləşdirmək istərdik. Bunu etməsək, bizim müəlliflərə səhv istinad etdiyimiz başa düşülə bilər. V.P.Fomenko sırğa-asmaların hazırlandığı məftilin yoğunluğunu 0,2 mm, H.P.Kəsəmənli isə tapdığı eyni tipli sırğaların hazırlandığı məftilin yoğunluğunu 1-2 sm göstərir. Belə görünür, bu arxeoloqların deyil, əl çap maşınında yazan şəxsin mexaniki səhvi olmuş, müəlliflərin diqqətindən yayınmışdır. Ölçülər V.P.Fomenkonun məqaləsində 0,2 sm, H.P.Kəsəmənlinin məqaləsində isə 1-2 mm olmalı imiş, çünki, sırğa-asmaların hazırlandığı tunc məftilin yoğunluğu başqa ölçüdə ola bilməzdi.

H.P.Kəsəmənli Cənubi Qafqaz abidələrindən əldə olunmuş sırğa-asmaların (tədqiqatçıların fikirlərinə istinad edərək) e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid olduğunu qeyd edir (21, s. 71). Xaçbulaq kurqanı Xocalı-Gədəbəy mədəniyyətinə aid olub e.ə. XIII-XII əsrlərə aid edildiyi (21, s. 74) üçün müvafiq olaraq buradan tapılan sırğa-asmalar da həmin dövrə aid olmalıdır. M.N Poqrebova da bu tarixlənməni qəbul edərək Xaçbulaq kurqanından tapılan sırğanı Son Tunc dövrünün üçüncü mərhələsinə - e.ə. XIII əsrin sonu-XII əsrə, lakin, Güllükdağdan tapılan sırğanı isə Son Tunc dövrünün ikinci

mərhələsinə - XIII əsrə aid edir (24, s. 88, 117.). Göründüyü kimi, ilanaoxşar bəzəkli sırğaların, tədqiqatçılar tərəfindən qəbul edilən ən qədim tarixləndirilməsi, hələlik XIII əsrdir.

İlanaoxşar bəzəyi olan sırğa-asmalar e.ə. XII-X əsrlərə aid III Sarıdərə nekropolunda 5 saylı qəbirdə (10, s. 57), e.ə. I minilliyin əvvəllərinə aid edilən Kolanı nekropolunda (4, s. 269; 10, s. 66) da tapılmışdır.

Plovdağ və ətrafındakı abidələrdən ilanaoxşar bəzəkli sırğa-asmalar Xalı-Keşan və Muncuqlutəpə nekropollarının sərdabələrində də tapılmışdır. Xalı-Keşan nekropolu, dövrün müəyyən olunmasında əsas olan tapıntılara – uzun lüləli çaynik tipli qablara, tək qulplu hündür dabanlı bokallara, deşiyi olan yastı tiyəli xəncərlərə, ucu burulmuş sancaqlara əsasən e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərinə aid edilir. Bu materiallara analoji tapıntılar kimi Göytəpənin K qəbrindən, Həsənlinin V, Dinhatəpənin III təbəqəsindən əldə olunan eyni formalı qabları göstərmək olar (17, s. 51)

İlanaoxşar bəzəkli sırğa-asmaların tapıldığı Muncuqlutəpə nekropolu qəbirlərin quruluşuna, ilan başlı bilərziklərə, orta hissəsi əyilmiş formalı bilərziklərə və keramikaya əsasən e.ə. VIII-VI əsrlərə aid edilir (17, s. 56).

Beləliklə, arxeoloji ədəbiyyatda ilanaoxşar bəzəyi olan sırğa-asmaların tapıldığı abidənin son tarixləndirilməsi e.ə. VI əsr göstərilir.

Təhlillərdən aydın olur ki, ilanaoxşar sırğa-asmaların mövcud olduğu xronoloji çərçivə e.ə. XIII-VI əsrlərdir. Bu müddət ərzində sırğa-asmaların formasında müəyyən dəyişikliklər baş vermişdir. Bu sırğa-asmaların ilk variantlarında həlqənin ortasından keçən bəzək ilanın hərəkətdə olan vəziyyətinə daha çox bənzəyir. Zaman keçdikcə bəzək stilizə olunaraq e.ə. VIII-VII əsrlərdə artıq, simmetrik meandr bəzəyi formasını almışdır. Onların formasındakı dəyişikliklərin bəziləri lokal xarakter daşıyır. Bu daha çox sancaqqarmağın əşyanın hansı tərəfinə və necə birləşdirilməsinə aiddir.

Xocalı-Gədəbəy tayfalarının yayıldığı bölgələr arasında mütəmadi olaraq sıx iqtisadi-mədəni əlaqələr davam etdiyindən bu sırğa-asmaların ilk dəfə harada istehsal olunub yayıldığını, hələlik dəqiq söyləmək çətindir. Ayrı-ayrı bölgələrdəki yerli istehsal nümunələri formalarındakı bəzi elementlərinə görə fərqlənirlər. Bu fərqlilik, xüsusən e.ə. I minilliyin əvvəllərinə aid olan nümunələrdə aydın görünür.

Muncuqlutəpə nekropolu sərdabələrindən meandr bəzəkli sırğa-asmaların bir neçə variantı əldə olunmuşdur. Onların sadə formalı nümunələri ortasında meandr bəzəyi olan tunc həlqədən ibarətdir. 24 saylı sərdabədən tapılmış, üzərində çoxlu bəzəyi olan sırğalarda meandrdan aşağı hissəyə müxtəlif

muncuqlar düzülmüşdür. Pasta muncuqların arasına müəyyən intervalla balıqqulağı asılmışdır. Bu sırğaların məftili sadə sırğalara nisbətən daha nazikdir. Meandr bəzəkdən başqa, muncuq düzümü olan sırğa-asmalar Kolanı nekropolunda da tapılmışdır (3, s. 44). Üzərində muncuq düzümü olan meandr bəzəkli sırğa-asmalar e. ə. I minilliyin ilk rübünə aid olan sırğalardır.

Arxeoloji ədəbiyyatdan məlum olduğu kimi, meandr bəzəkli sırğa-asmalar içərisində ölçülərinə görə ən böyüyü Xalı-Keşan nekropolundakı 9 saylı sərdabədən əldə olunmuşdur. Onun hazırlandığı məftilin diametri 2,5 mm, sırğa-asmanın həlqəsinin diametri isə 11,7 sm-dir. Bu səbəbdən müəlliflər onu asma bəzək kimi qeydə almışlar (17, s. 10). Lakin, diqqətlə baxdıqda həlqənin deformasiyaya uğrayaraq açıldığı və meandr bəzəyin qırıldığı aydın görünür. (Şəkil). Əgər, həlqə yığılaraq əvvəlki vəziyyətinə qaytarılarsa, onda sırğanın diametri 8 sm-dən bir neçə millimetr artıq olur ki, bu da iri meandr bəzəkli sırğa-asmalar üçün normal ölçüdür. Sırğa-asma dağıdılmış qəbirdən tapıldığı üçün onun deformasiyaya uğraması təbiidir. İki ədəd tapılması onun sırğa-asma olduğunu sübut edir. Bəzi tədqiqatçılar, Son Tunc-Erkən Dəmir dövrünə aid həlqə formalı sırğa-asmaların diametrinin 5 sm-dən artıq olmadığını qeyd edirlər (13, s. 57). Ümumiyyətlə, meandr-ilanaoxşar bəzəyi olan sırğa-smalar, həlqə formalı sırğa-asmalar içərisində diametrinə görə ən böyük bəzək əşyalarıdır.

Yuxarıdakı təhlillərdən belə nəticəyə gəlmək olur ki, Plovdağ nekropollarında və ətrafındakı abidələrdə əldə olunan Xocalı-Gədəbəy mədəniyyətinə aid meandr-ilanaoxşar bəzəyi olan sırğa-asmaları e.ə. XIII-VI əsrlərlə tarixləndirmək olar. Bunlardan, I Plovdağ nekropolu kurqanlarında aşkar olunan sırğa-asmaları ilk nümunələr, Xalı-Keşan və Muncuqlutəpə nekropollarının sərdabələrində aşkar olunan ilanaoxşar bəzəyi və muncuqları olan sırğa-asmalar isə son nümunələrdir.

I Plovdağ nekropolundakı bəzək əşyasını “asma bəzək”, “kicgah bəzəyi” adlandırmaqla baş geyiminin bir elementi hesab etmək olar. Baş geyimi aşkar olunmayan qəbirlərdə tapılmış və həcminə görə kiçik olan bəzəkləri isə sırğa kimi qəbul etmək mümkündür.

Plovdağ nekropolunun kurqanlarının qısa təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, e.ə. II minilliyin sonlarından başlayaraq dəfn adətində, kurqanların quruluşunda və qəbirlərə qoyulmuş avadanlıqda köklü dəyişikliklər baş vermiş, kurqanlar tədricən ətrafına daş döşənmiş çoxdəfnli sərdabə tipli qəbirlərlə əvəz olunmuşdur. Erkən Dəmir dövrünə aid Xalı Keşan, Mərdan gölü, Muncuqlutəpə nekropolları Plovdağ kurqanlarının bir çox element-

lərini (qurbangah), dəfn adətinin əsas xüsusiyyətlərini (bükülü vəziyyətdə yanı üstə dəfn) özündə saxlasa da, lakin bunlar artıq yeni dövrün qəbir tipləridir. Bu qəbirlərdə ölülərin istiqaməti dəyişmiş, çoxdəfnli adət mövcud olmuşdur. Bütün bunlar isə qədim cəmiyyətdə yeni bir dini ideologiyanın hökm sürdüyünü göstərir.

## Ədəbiyyat

**Azərbaycan dilində:**

1. Avşarova İradə. Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii-tunc məmulatı (e.ə. XIV-VII əsrlər). Bakı: “Nurlan”, 2007, 192 s.
2. Aynur Özfirat. Doğu Anadolu yayla kültürleri. İstanbul: Arkeoloji ve sanat yayınları, Kanaat Basımevi, 2001, 224 s. illüstrasiya.
3. Baxşəliyev V. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: Elm, 2002, 128 s.
4. Baxşəliyev V. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 304 s.
5. Dostiyev Tarix. Arxeoloji lüğət. Bakı, 2018, Elm və Təhsil, 324 s.
6. İsmayılzadə Qüdrət, İbrahimli Bəhlul. Qızılburun nekropolu. Bakı: Elm və Təhsil, 2013, 120 s.
7. Qaşqay S., İbrahimli B. Plovdağ nekropolunun Orta Tunc dövrü qəbirləri haqqında. Naxçıvan bu gün: İslahatlar, Perspektivlər. Beynəlxalq Simpoziumun materialları. Naxçıvan, “Nurlan”, 2008, s. 75-81.
8. Müseyibli Nəcəf. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri. Bakı: Nafta-Press, 2014, 140 s.
9. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. Bakı: Elm və Təhsil, 2020, 576 s.
10. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 144 s.
11. Sadıqzadə Ş.H. Qədim Azərbaycan bəzəkləri. Bakı: “İşıq” nəşriyyatı, 1971, 10,5 ç.v.
12. Seyidov A., Həsənova Ə. Naxçıvanın qədim metalı. Bakı: Elm, 2005, 315 s.
13. Seyidov Mirhəşim. Naxçıvan ərazisində Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti. Bakı: “Bakı Universiteti” nəşriyyatı, 2012, 188 s.
14. Volfram Nagel, Yeva Ştrommenker. Qalakənd. Tərcüməçi Fatma Abbasova. Bakı: “Diplomat” nəşriyyatı, 1999, 222 s. 84 Türk dilində.
15. Абибуллаев О. А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Издателтство «Элм», 1982, 315 с.
16. Акишев К.А., Агеева Е.И.,Пацевич Г.И., Маргулан А.Х. Основные итоги археологических работ на территории Казахстана в 1955 г. Изв.АН КазССР, сер. ист., экон., филос. и права, №3, 1956, с. 96-97
17. Асланов Г., Ибрагимов Б., Кашкай С. Древние некрополи Хараба-Гилана. Баку: Нурлан, 2002, 64 с. Иллюстрация.

**1. Rus dilində:**

18. Бартольд В.В. К вопросу о погребальных обрядах турков и монголов. Соч. Т. IV, Москва, Наука, 497 с.
19. Гощгарлы Г.О.Типология погребальных памятников античного периода на территории Азербайджана. Баку: «Елм», 2012, 248 с.
20. Гусейнова М. Из истории Южного Кавказа. ХоджалыГедабекская культура Азербайджана (XVI-IX вв ло н.э.). Баку, «Бизим китаб, 2011, 200 с.
21. Кесаманлы. Г.П. Хачбулагский курган с массовым захоронением. МКА, том VIII, с. 46-75.
22. Кореневский С.Н. Древнейшие курганы Предкавказья в сравнений с майкопско-новосвободненской курганной традицией и материалами ее бытовых памятников // Новейшие открытия в археологии Северного Кавказа: исследования и интерпретации. XVII Крупновские чтения. Материалы Международной научной конференции археологии Северного Кавказа (МНКАСК). Махачкала, Мавраевь, 2012, 412 с. (İqtibas N.Müseyiblidən götürülmüşdür).
23. Обельченко О.В. Насыпи курганов в долине Зарафшана (к 85 вопросу о ранней тюркизации Согда. Культурные связи народов Средней Азии и Кавказа (древность и средневековье). Москва, Наука, 1990, (190 с.) с. 51-56.
24. Погребова М.Н. История Восточного Закавказья: вторая половина II – начало I тыс. до н.э. (по археологическим данным). Москва: Восточная литература, 2011, 422 с. Иллюстр.
25. Полевые археологические исследования в 1987 году. Тбилиси: Мецниереба, 1995, с. 60-61, табл. 82-91.
26. Ростунов В.Л. Опыт реконструкции сакрального пространства ранних курганов Европы и Севернего Кавказа. Владикавказ: Издательство СОГУ, 2006, 288 с.
27. Федоров-Давыдов Г.А. Кочевники Восточной Европы под властью золотоордынских ханов. Археологические памятники. Москва, Изд-во МГУ, 1966, 276 с.
28. Фоменко В.П. Грунтовое погребение № 63 в Мингечауре. МКА, III том, с. 67-80

## Summary

## On the mounds of the transition period from the Late Bronze to the Early Iron (Based on materials from the necropolis of Plovdag)

**Bahlul Ibrahimli, Elvin Aliyev**

The Plovdag kurgan has existed for more than 2 thousand years. Until now, 98 kurgans have been investigated at three necropolises, of which about 10 are intact, which provided valuable information, first of all, about the funeral rite, as well as about the material and spiritual situation of the ancient society. The burial chambers of the early kurgans are earthen, while the overwhelming majority of the later burial mounds have stone boxes. The funeral rite changed at the end of the II millennium. The multiple burial ceremony is carried out in stone boxes. In this case, the corpses of the deceased are placed on top of each other, since the size of the cell does not allow them to be placed side by side.

These burials are rich in inventory, as they contain many different beads, bronze jewelry, talismans-amulets made of bones, and richly decorated headdresses.

Of particular note are the serpentine earrings made of bronze. These earrings were common in the monuments of the Khojaly-Gadabay culture in the XIII-VI centuries BC. During their existence, they gradually changed their shape, and the main detail of this decoration, a snake, turned into a meander ornament, and various beads were hung in the lower part.

The Plovdag kurgans make it possible to study the origin of the crypts of the Khaly Keshan, Mardangol and Munjuklutepe necropolises, which are located next to the Plovdag necropolises.


**Keywords:** Plovdag, Bronze Age, Early Iron Age, kurgan, artifact.

## Резюме

## О курганах переходного периода от поздней бронзы к раннему железу (по материалам некрополей Пловдага)

**Бахлул Ибрагимли, Эльвин Алиев.**

Пловдагский курганный могильник существовал более 2-х тысяч лет. До сих пор на трех некрополях исследованы 98 курганов, из них около 10 нетронутые, которые дали ценную информацию, в первую очередь, о погребальном обряде, а также о материальном и духовном положении древнего общества. Погребальные камеры ранних курганов земляные, поздних курганов подавляющее большинство каменные ящики. В конце II тысячелетия погребальный обряд меняется. В каменных ящиках осуществляется обряд многократного захоронения. При этом трупы покойных кладутся друг на друга, поскольку размер камеры не позволяла их класть рядом.

По инвентарю эти погребения богатые, где обнаружены множество разных бус, украшения из бронзы, талисманы-амулеты из костей, богато украшенные головные уборы.

Следует особо выделить змеевидные серьги, изготовленные из бронзы. Эти серьги были распространены в памятниках Ходжалы-Гедабекской культуры в XIII-VI вв. до н.э. В период существования они постепенно меняли свою форму, а основная деталь этого украшения – змея, превратилась в меандровый орнамент, ещё в нижней части повесили разные бусы.

Пловдагские курганы позволяют изучать происхождение склеповых погребений некрополей Халы Кешан, Мардангёл и Мунджуклутепе, которые расположены рядом с некрополями Пловдага.

**Ключевые слова:** Пловдаг, эпоха бронзы, эпоха ранней железы, курган, артефакт.